# TARİXŞÜNASLIQ, BEYNƏLXALQ ƏLAQƏLƏR

*A.Nəcəfova. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Rusiya Federasiyasının müxtəlif elmi qurumları, kitabxana və universitetləri ilə əlaqələri (2015-2020-ci illər) // Əlyazmalar yanmır, 2020, № 1 (10), s. 105-111.*

UOT: 316.624

**Aynur Nəcəfova**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: israfilova-aynur@mail.ru*

## AMEA MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNUN RUSİYA FEDERASİYASININ MÜXTƏLİF ELMİ QURUMLARI, KİTABXANA VƏ UNİVERSİTETLƏRİ İLƏ ƏLAQƏLƏRİ (2015-2020-Cİ İLLƏR)

**Xülasə**

Məqalədə Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə Rusiya Federasiyasının müxtəlif elmi qurumları, kitabxana və universitetləri arasında yaradılan əlaqələrinin tarixinə nəzər salınır. 2015-2020-ci illər ərzində Rusiyanın elmi və mədəni qurumları ilə Əlyazmalar İnstitutunun əlaqələrinin möhkəmlənməsi istiqamətdə görülən işlər haqqında xronoloji-tarixi ardıcıllıqla məlumat verilir. İnstitut əməkdaşlarının bu ölkənin ali təhsil müəssisələrinə, muzey, arxiv və kitabxanalarına elmi ezamiyyətləri, araşdırmalarının nəticələrinin beynəlxalq elmi məcmuələrində dərc olunması, rusiyalı alimlərlə (həmçinin soydaşlarımızla) həmmüəllif olduqları əsərlər, həmin ölkədə fəaliyyət göstərən təşkilatlardan əldə olunan əlyazma və digər qiymətli mənbələrin surətləri və s. barədə söhbət açılır.

***Açar sözlər:*** *Əlyazmalar İnstitutu, Rusiya Federasiyası, beynəlxalq əlaqələr, 2015-2020-ci illər*

**Giriş**

*2015-2020-ci illər ərzində (2015-ci ilin mart ayından 2020-ci ilin mart ayınadək) AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Rusiya Federasiyasının müxtəlif elmi qurumları, kitabxana və universitetləri ilə qurulan əlaqələrini ümumi təhlilə cəlb etdikdə belə nəticəyə gəlmək olur ki, Əlyazmalar İnstitutu Rusiya Elmlər Akademiyasının daha çox Tatarıstan Respublikası Elmlər Akademiyası və Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzi ilə, Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrindən isə daha çox Ka-*

*zan Federal (Volqaboyu) Universiteti və Sankt-Peterburq Universiteti ilə elmi əlaqələr qurmuş, həm Azərbaycanda (Bakıda), həm də Rusiyada (Kazan, Sankt-Peterburq) görüşlər təşkil olunmuş, alimlərimiz adıgedən universitetlərdə beynəlxalq əhəmiyyətli konfranslara qatılmış, məruzələr etmişlər.*

2015-2020-ci illər üzrə sənədləri, mətbuat materiallarını və elektron resursları araşdırdıqda belə nəticəyə gəlirik ki, Əlyazmalar İnstitutunun Rusiya Federasiyasının elmi qurumlarından və ali təhsil ocaqlarından daha çox Kazan və Sankt-Peterburq şəhərlərində yerləşən müəssisələrlə əlaqələr qurması müəyyən tarixi ənənəyə söykənir. Məlum həqiqətdir ki, XIX əsrdə Çar Rusiyası və Qacarlar dövləti arasında aparılan müharibələr zəminində Ərdəbil, Təbriz şəhərlərində yerləşən kitabxanalardan ən qiymətli əlyazmalar, eyni zamanda Azərbaycan müəlliflərinin əsərlərinin qədim nüsxələri və Azərbaycanla bağlı yazılı abidələr qiymətli qənimət kimi Rusiyaya daşınmış, xüsusən də Kazan və Sankt-Peterburq şəhərlərindəki elmi və ali təhsil qurumlarının kitabxanalarına verilmişdir. Məsələn, Şeyx Səfi məqbərəsindəki qiymətli əlyazmalar Sankt-Peterburqa – Peterburq İmperator Kitabxanasına (hazırki M.Saltıkov-Şedrin adına Rusiya Milli Kitabxanasına) belə daxil olmuşdur [*Daha geniş məlumat üçün bax*: 1]. Bu baxımdan Azərbaycan alimlərinin fürsət düşdükcə bu şəhərlərdəki elmi qurumlara baş çəkməsi, o müəssisələrin kitabxanalarında işləmək həvəsi təbii görünməlidir.

Əlyazmalar İnstitutunun alimləri 2018-2019-cu illərdə Rusiya Federasiyasının müxtəlif elmi arxiv və fondlarında da tədqiqatlar aparmışlar. Məsələn, Multidissiplinar əlyazmaların tədqiqi şöbəsinin aparıcı elimi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Rəna Məmmədova bu illərdə Rusiya Dövlət Arxivinin Moskva və Sankt-Peterburq şəhərlərində yerləşən ayrı-ayrı filiallarında – Tarix Arxivində, Hərbi-Tarixi Arxivdə, Qədim Aktlar Arxivində və Rusiyanın Xarici Siyasət Arxivində elmi ezamiyyətdə olmuş, Azərbaycanla bağlı mühüm sənədlərlə tanış olmaq şansı əldə etmişdir. Yaxud Türkdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elimi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət Məmmədli 2019-cu ilin sentyabr ayında elmi tədqiqat işi ilə əlaqədar Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq şəhərlərində yerləşən Şərq əlyazmaları İnstitutunda elmi ezamiyyətdə olmuş, institutun fondunda qorunan Şeyx Fəridəddin Əttarın "Pəndnamə" əsərinin Б-149 şifirli nadir əlyazması üzərində tədqiqat aparmışdır.

Sevindirici haldır ki, son iki ildə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Rusiya alimləri ilə (Sankt-Peterburq Dövlət Universitetinin dosenti, tarix elmləri namizədi Akif Fərzəliyev, Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun dosenti Abuzər Bağırov) müştərək elmi araşdırmalar da aparılmışdır. Bu birgə əməyin nəticəsində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan tarix və coğrafiyaya dair türkdilli əlyazmaların kataloqu hazırlanmış, görkəmli şərşünas Y.E.Bertelsin "Böyük Azərbaycan şairi Nizami" kitabı rus dilindən Azərbaycan dilinə tərcümə olunmuşdur.

Əlyazmalar İnstitutunun Rusiyanın uyğun müəssisələri ilə kitab və əlyazma mübadiləsi istiqamətində əməkdaşlıq əlaqələrinin qurulması baxımından da mühüm addımlar atılmışdır.

2018-ci ildə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunun 200 illik yubileyinə həsr olunmuş "Rusiya və Şərq. Rusiya akademik şərqşünaslığının 200 illiyi" adlı beynəlxalq forumda iştirak edib *[Bax: 2]*, forum çərçivəsində Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunun direktoru, REA-nın müxbir üzvü İrina Popova ilə də görüşmüş, tərəflər gələcək əməkdaşlıq münasibətlərinin qurulması haqqında danışıqlar aparmışlar.

2020-ci ildə M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının mütəxəssisləri Əlyazmalar İnstitutunda olmuş, hər iki müəssisənin rəhbərləri beynəlxalq kitab mübadiləsi haqqında razılaşmaya gəlmişlər. Əlyazmalar İnstitutunda son illərdə rus, ingilis dilində nəşr olunan və rus ədəbiyyatını öyrənən bir neçə kitab həmin kitabxananın fonduna hədiyyə olunmuşdur.

Qeyd etmək lazımdır ki, 07 fevral 2020-ci il tarixində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna daxil olan Rusiya Milli Kitabxanasından rəsmi təşəkkür məktubunda Əlyazmalar İnstitutu ilə Rusiya kitabxanaları arasındakı beynəlxalq sənəd-informasiya mübadiləsinin əhəmiyyəti vurğulanmış, atılan ilk addımlar təqdir olunmuşdur.

Bu müddətdə Rusiya Federasiyasının müxtəlif kitabxana və saxlanclarında qorunan Azərbaycanla əlaqədar əlyazmaların surətlərinin Bakıya gətirilməsi, rusiyalı mütəxəssislərlə birgə tədqiqi sahəsində də işlər görülmüşdür. Belə ki, 2018-ci ildə Rusiya Elmlər Akademiyası Dağıstan Elmi Mərkəzinin Etnoqrafiya və Arxeologiya İnstitutunun kitabxanasından XVI-XIX əsrər Dağıstan və Şirvan tarixinə dair Azərbaycan dilində yazılmış "Kitabi-nəsəbnameyi-ümərayi-Qaytaq" əsərinin əlyazmasının surəti əldə edilmişdir. Hazırda institut alimləri dağıstanlı həmkarları ilə (Həsən Məmmədrəsul oğlu Orazayev və Milena Nuru qızı Osmanova) birgə əlyazma üzərində tədqiqat aparırlar.

2020-ci ildə Rusiya Milli Kitabxanasında qorunan Azərbaycanın ilk rusdilli mətbuat nümunəsi olan "Bakinskiy listok" qəzetinin 1871-1872-ci illərə aid bütün nömrələrinin (16-cı nömrə istisna olmaqla) elektron versiyası əldə olunmuş və Azərbaycan oxucularının istifadəsinə verilmişdir.

Rusiya Federasiyasının elmi qurumlarının mətbuat orqanlarında da AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fəaliyyəti təbliğ olunmuşdur. Məsələn, Rusiya Elmi Cəmiyyətinin həftəlik "Poisk" qəzetinin 09 noyabr 2018-ci il tarixli, 45-ci sayında institut haqqında geniş müsahibə dərc olunmuş, 05 aprel 2019-cu il tarixində "Rossiya - Kultura" telekanalının "Qara dəliklər. Ağ ləkələr" adlı elm-təhsil teleproqramı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi fəaliyyətini işıqlandırmaq məqsədi ilə çəkiliş aparmışdır.

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun alimlərinin elmi araşdırmalarının mühüm nailiyyətləri son illərdə xaricdə, o cümlədən impakt faktorlu jurnallarda daha çox dərc olunur. Bu tədqiqatlar içərisində Rusiyanın beynəlxalq bazalara daxil olan, xülasələndirmə və indeksləmə sistemli jurnalları da kifayət qədərdir. Sevindirici haldır ki, institut alimlərinin (Rəna Məmmədova) belə məqalələrindən biri də 2019-cu ildə Web of Science (Clarivate Analytics) məlumat bazasına daxil edilmiş və Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində dərc olunan "Voprosı istorii" («Вопросы истории») jurnalında işıq üzü görüb.

2015-2020-ci illərdə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə Rusiya Federasiyasının müxtəlif elmi qurumları, kitabxana və universitetləri arasında qurulan əlaqələrin xronologiyasını təqdim edirik.

**- 22-24 aprel 2015-ci il** tarixdə Rusiyanın Sankt-Peterburq şəhərində "Asiya və Afrika ölkələrinin mənbəşünaslığı və tarixşünaslığı" mövzusunda XXVIII beynəlxalq konfransda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun (*bundan sonra Əlyazmalar İnstitutu*) aparıcı elmi işçisi, fil.ü.f.d. Əkrəm Bağırov "Töhfeyi Saminin Bakı nüsxələri", elmi işçisi Tahirə Əliyeva "Türk admiralı Piri Rəis və onun "Kitabi-Bəhriyyə" adlı məruzələrlə çıxış etmişlər.

- **21-23 iyun 2017-ci il** tarixdə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində "Asiya və Afrika ölkələrinin mənbəşünaslıq və tarixşünaslığı üzrə XXIX beynəlxalq konqres"də Əlyazmalar İnstitutun baş elmi işçisi, t.ü.e.d. Tahirə Həsənzadə "Lev Nikolayeviç Tolstoyun AMEA-nın Əlyazmalar İnstitutunun kolleksiyasında saxlanan XIX əsrin sonu XX əsrin əvvəlinə aid əsərləri", aparıcı elmi işçisi, fil.ü.f.d. Əkrəm Bağırov "Bəhmən Mirzə Qacar və onun irsi", elmi işçisi Tahirə Əliyeva "İbn Sinanın əsərlərinin Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan əlyazma nüsxələri barədə" adlı məruzələrlə iştirak etmişlər.

**- 04-07 oktyabr 2017-ci il** tarixdə Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində yerləşən Kazan Federal (Volqaboyu) Universitetinin nəzdində fəaliyyət göstərən "Beynəlxalq əlaqələr, tarix və şərqşünaslıq İnstitutu"nun təşkilatçılığı ilə keçirilən "Rusiya-Çin: tarix və mədəniyyət" mövzusunda X yubiley elmi-praktik konfransında İnstitutun elmi katibi, fil.ü.f.d., dosent Əzizağa Nəcəfov "Nizami Gəncəvinin "Xəmsə"sində Çinin və çin-

li obrazların təsviri", aparıcı elmi işçisi Aynur Nəcəfova "Qədim Çin ədəbiyyatı nümunələrinin Azərbaycan ali məktəblərində tədrisi problemləri", elmi işçisi Tahirə Əliyeva "XVI əsrin böyük alimi Piri Rəyisin "Kitabi-bəhriyə" əsərində Çinin təsviri" adlı məruzələrlə iştirak etmişlər.

**- 17 oktyabr 2017-ci il tarixdə** Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinin Dil və ədəbiyyat İnstitutunun Şərqşünaslıq şöbəsinin böyük elmi işçisi Həsən Məmmədrəsul oğlu Orucov (Orazayev) və həmin mərkəzin Tarix, arxeologiya və etnoqrafiya İnstitutunun Şərqşünaslıq şöbəsinin böyük elmi işçisi, tarix elmləri namizədi Milena Nuru qızı Osmanova AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qonaq olmuşlar.

**- 12 iyul 2018-ci il tarixdə** Əlyazmalar İnstitutunun direktor müavini, fil.ü.e.d. Paşa Kərimov Rusiya Elmlər Akademiyası Dağıstan Elmi Mərkəzinin Etnoqrafiya və Arxeologiya İnstitutunun kitabxanasından Dağıstan və Şirvan tarixinə dair Azərbaycan dilində yazılmış "Kitabi-nəsəbnameyi-ümərayi-Qaytaq" (1456-ci il, azərbaycanca) əsərinin əlyazmasının surətini əldə etmişdir.

**- 25 oktyabr 2018-ci il tarixdə** "Elm və Təhsil" nəşriyyatında Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix ü.f.d, dosent Rəna Məmmədova və Sankt-Peterburq Dövlət Universitetinin dosenti, tarix e.n. Akif Fərzəliyevin tərtibçisi olduğu "AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan tarix və coğrafiyaya dair türkdilli əlyazmaların kataloqu" çap edilmişdir.

- Rusiya Elmi Cəmiyyətinin həftəlik "Poisk" qəzetinin **09 noyabr 2018-ci il tarixli, 45-ci sayında** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, fil.ü.e.d. Paşa Kərimovun institutun fəaliyyətindən bəhs edən geniş müsahibəsi dərc olunmuşdur.

**- 29 oktyabr-15 noyabr 2018-ci il tarixdə** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Rəna Məmmədova Rusiya Federasiyasının Sankt-Peterburq və Moskva şəhərlərində yerləşən elmi arxivlərində: Rusiya Dövlət Tarix Arxivində (Российском Государственном Историческом Архиве (РГИА)), Rusiya Dövlət Hərbi-Tarixi Arxivində (Российском Государственном Военно-Историческом Архиве (РГВИА)), Rusiya Dövlət Qədim Aktlar Arxivində (Российском Государственном Архиве Древних Актов (РГАДА)) elmi ezamiyyətdə olmuş, XVIII əsrin birinci yarısında Azərbaycan tarixi ilə bağlı araşdırmalar aparmışdır.

**- 15 noyabr 2018-ci il tarixdə** Tatarıstan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, Rusiya Elmlər Akademiyasının akademiki Daniya Zagidullina və Tatarıstan Respublikası Elmlər Akademiyası Q.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Kim Minnullin Əlyazmalar İnstitutunda olmuş, əlyazmalar sərgisi ilə tanış olmuşlar.

**- 03-04 dekabr 2018-ci il tarixdə** Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli AMEA-nın prezidenti, akademik Akif Əlizadənin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunun 200 illik yubileyinə həsr olunmuş "Rusiya və Şərq. Rusiya akademik şərqşünaslığının 200 illiyi" adlı beynəlxalq forumda iştirak edib.

**- 09 yanvar 2019-cu il tarixdə** Kazan Federal Universitetinin Beynəlxalq Əlaqlər İnstitutunun sosial-humanitar elmlər üzrə xarici dillər kafedrasının dosenti, filologiya üzrə elmlər namizədi Landış Yuzmuxametova və institutun elmi katibi, f.e.n. Alsu Şaripova Əlyazmalar İnstitutunda olmuşlar.

**- 2019-cu ilin mart ayında** Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix ü.f.d., dosent Rəna Məmmədovanın "Nadir şah Əfşarın sənədləri və XVIII əsrdə sünni-şiə dialoqu" (Документы Надир шаха Афишара и суннитско – шиитский диалог в XVIII в.) məqaləsi Web of Science (Clarivate Analytics) məlumat bazasına daxil edilmiş və Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində dərc olunan "Voprosı istorii" (*«Вопросы истории»*) jurnalının 2019-cu il üçün 3-cü sayında (*s. 154-164*) işıq üzü görmüşdür.

**- 05 aprel 2019-cu il tarixdə** Rusiya Elmi Cəmiyyətinin həftəlik "Poisk" qəzetinin videomateriallar şöbəsinin müdiri Aleksey Jukov və "Rossiya - Kultura" telekanalının "Qara dəliklər. Ağ ləkələr" adlı elm-təhsil teleproqramının əməkdaşları Marina Orlova və Maksim Xankişiyev Əlyazmalar İnstitutunda olmuş, akademik Teymur Kərimlidən institutun tarixi, burada mühafizə olunan nadir əlyazmalar haqqında müsahibə götürmüşlər.

**- 25-27 aprel 2019-cu il tarixində** Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, fil.ü.e.d. Paşa Kərimov Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində görkəmli arxeoqraf alim Marsel Əhmədcanovun 80 illiyinə həsr edilmiş "Türk-tatar əlyazma irsi: müasir mərhələdə mühafizəsi və araşdırılması problemləri" mövzusunda keçirilən elmi-praktiki seminarda iştirak etmiş, "Azərbaycan əlyazma kitabının tarixi" adlı məruzə ilə çıxış etmişdir.

**- 16-29 iyun 2019-cu il tarixdə** Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, tarix ü.f.d., dosent Rəna Məmmədova Sankt-Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin elmi kitabxanasında (*Научной библиотеке Восточного факультета СПбГУ*) və Moskva şəhərlərində yerləşən Rusiya İmperiyasının Xarici Siyasət Arxivində (*Архив Внешней Политики Российской империи (АВПРИ)*) elmi ezamiyyətdə olmuş, Nadir şah Əfşarın xarici siyasəti mövzusunda araşdırma aparmış, nadir sənədlərlə tanış olmuşdur.

**- 19-21 iyun 2019-cu il tarixdə** Sankt-Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin təşkil etdiyi "Asiya və Afrika ölkələrinin tarixşünaslığı və mənbəşünaslığı" mövzusunda XXX Beynəlxalq Konqresdə Əlyazmalar İnstitutunun aparıcı elmi işçiləri fil.ü.f.d., dosent Əkrəm Bağırov "Kərbəlayi Təbrizi Dərvişin "Cənnətül-cünal" təzkirəsi Təbriz tarixinin öyrənilməsi üçün etibarlı mənbə kimi", tarix ü.f.d., dosent Rəna Məmmədova "Nadir Şah Əfşarın ordusundakı silahlanma və hərb sənəti haqqında mənbələr", böyük elmi işçisi İradə Vəzirova "Seyyid Yəhya Şirvani Bakuvinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan "Resayel" iştirak ediblər.

**- 06-20 sentyabr 2019-cu il tarixdə** Əlyazmalar İnstitutunun aparıcı elimi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət Məmmədli Rusiya Federasiyasının Sankt-Peterburq şəhərlərində elmi ezamiyyətdə olmuş, Rusiya Elmlər Akademiyasının Şərq əlyazmaları İnstitutunun fondunda qorunan Şeyx Fəridəddin Əttarın "Pəndnamə" əsərinin "Б-149" şifirli nadir əlyazması üzərində tədqiqat aparmışdır.

**- 9-12 oktyabr 2019-cu il tarixdə** Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtında Kazan Federal Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq əlaqələr İnstitutu və Konfutsi İnstitutunun təşkilatçılığı ilə keçirilən Çin Xalq Respublikasının yaradılmasının 70 illiyinə həsr olunmuş "Rusiya-Çin: tarix və mədəniyyət" mövzusunda XII beynəlxalq elmi-praktik konfransda Əlyazmalar İnstitutunun elmi katibi, fil.ü.f.d., dosent Əzizağa Nəcəfzadə "Makedoniyalı İskəndərin Çin yürüşü (ət-Təbərinin "Tarix" və Nizaminin "İskəndərnamə" əsərləri əsasında)", baş elmi işçisi, fəl.ü.e.d., dosent Zəkiyyə Əbilova "Çini qablar dünyəvi mədəniyyət nümunəsi kimi", aparıcı elmi işçisi, fil.ü.f.d., dosent Aynur Nəcəfova "Çin və Çinin tarixi Gümüş dövr rus poeziyasında" adlı məruzələrlə iştirak ediblər.

**- 11 oktyabr 2019-cu il tarixdə** Rusiya Federasiyasının Tatarıstan Respublikasında fəaliyyət göstərən Azərbaycan Milli Mədəni Muxtariyyətinin iqamətgahının yerləşdiyi Kazan şəhərindəki Xalqlar Dostluğu Evində Əlyazmalar İnstitutunun elmi katibi, fil.ü.f.d., dosent Əzizağa Nəcəfzadə və aparıcı elmi işçisi, fil.ü.f.d., dosent Aynur Nəcəfova ilə görüş keçirilib. Görüşdə "Biz kimik?" ümumi başlığı altında Ana dilimizin tarixi yolu, əcnəbi dillərdə yaradılan Azərbaycan ədəbiyyatı, Azərbaycandan kənarda ana dilimizin qorunması problemi ətrafında müzakirələr aparılıb.

**- 10 oktyabr 2019-cu il tarixdə** Kazan şəhərindəki Azərbaycan Mərkəzində, **11 oktyabr 2019-cu il tarixdə** isə Xalqlar Dostluğu Evində yerləşən Azərbaycan Milli Mədəni Muxtariyyətinin Konfrans zalında Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində dərc olunan "Odlar yurdu" qəzetinin redaktoru və bu şəhərdə Azərbaycan Mədəniyyət

Mərkəzinin rəhbəri Vasif Abdullayevin təşəbbüsü ilə Tatarıstan Xalqlar Dostluğu Evinin Mədəni-kütləvi tədbirlərin təşkilat şöbəsinin müdiri Anjelika Vəkilova, Azərbaycan Milli Mədəni Muxtariyyətinin başçısı Bəşir Bəşirovun da iştirakı ilə Əlyazmalar İnstitutunun elmi katibi, fil.ü.f.d., dosent Əzizağa Nəcəfzadənin "Nizaminin türklüyü və türklüyə münasibəti Azərbaycan nizamişünaslığında" kitabının təqdimatı keçirilmişdir.

**- 12 oktyabr 2019-cu il tarixdə** AMEA Əlyazmalar İnstitutunda keçirilmiş və dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda IV Beynəlxalq elmi konfransda Sankt-Peterburq Dövlət Universitetinin aspirantı Şahnaz Kamalova "Nəsimi dilində türk mənşəli adlar və onların qədim türk lüğətləri ilə müqayisəsi" («Имена тюркского происхождения в языке Насими и их сопоставление с данными древнетюркских словарей») mövzusunda məruzə etmişdir.

**- 24 yanvar 2020-ci il tarixdə** M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının mütəxəssisləri – kitabxananın Beynəlxalq fəaliyyəti üzrə direktoru Svetlana Qoroxova, Elmi və Tədris işləri üzrə direktoru Tatyana Polejayeva, MDB və Şərqi Avropa ölkələri üçün Qoruma və Mühafizə Mərkəzinin koordinatoru Mariya Kolpakova, İPR MEDİA-nın baş direktoru Natalya İvanova, İPR MEDİA-nın layihə koordinatoru Vita Kutuyeva Əlyazmalar İnstitutunda olmuş, institutun direktoru, akademik Teymur Kərimli ilə görüşmüşlər.

**- 24 yanvar 2020-ci il tarixdə** Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli Azərbaycan ilə Rusiya arasında əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və TASS informasiya agentliyinin dəstəyi ilə Bakıda təşkil edilən "Bakı-Moskva: mədəniyyətlərin dialoqu" konfransı çərçivəsində "Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır" mövzusunda dəyirmi masaya qatılıb. Dəyirmi masanın gedişində Moskva və Bakı mədəniyyət idarələri arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb.

**- 07 fevral 2020-ci il tarixdə** Əlyazmalar İnstitutuna Rusiya Milli Kitabxanasından rəsmi təşəkkür məktubu daxil olmuşdur. Təşəkkürnamədə Əlyazmalar İnstitutu ilə sözügedən təşkilatlar arasındakı beynəlxalq sənəd-informasiya mübadiləsinin əhəmiyyəti vurğulanmış, İnstitutun elmi nailiyyətlərinin, o cümlədən nəşrlərinin beynəlxalq təbliğini və qlobal elmi mühitə inteqrasiyasını həyata keçirən "Beynəlxalq əlaqələr" şöbəsinin müvafiq sahədəki fəaliyyəti təqdir edilmişdir.

**- 27 fevral 2020-ci il tarixdə** Rusiya Milli Kitabxanasında qorunan Azərbaycanın ilk rusdilli nəşri "Bakinskiy listok" qəzetinin 1871-1872-ci illərə aid bütün nömrələrinin (16-cı nömrə istisna olmaqla) elektron versiyası Əlyazmalar İnstitutu tərəfindən əldə olunub.

**Nəticə**

*2015-2020-ci illərə aid informasiya-sənəd resurslarını araşdırdıqda bu qənaətə gəlmək olur ki, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Rusiya Elmlər Akademiyasının daha çox Tatarıstan Respublikası Elmlər Akademiyası, Şərq Əlyazmaları İnstitutu və Dağıstan Elmi Mərkəzi ilə, Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən ali təhsil müəssisələrindən isə daha çox Kazan Federal (Volqaboyu) Universiteti və Sankt-Peterburq Universiteti ilə elmi əlaqələr qurmuşdur. Bu təşkilatların rəhbər heyəti ilə həm Azərbaycanda (Bakıda), həm də Rusiyada (Kazan, Sankt-Peterburq) müəyyən görüşlər keçirilmiş, hər iki ölkənin alimləri Bakıda, Kazanda, Sankt-Peterburqda beynəlxalq əhəmiyyətli konfranslara qatılmış, məruzələr etmişlər.*

**Ədəbiyyat siyahısı:**

1. Ağalarlı Mübariz. Oğurlanmış Azərbaycan tarixi: Şeyx Səfi Kitabxanası // 525-ci qəzet.- 2018.- 27 aprel.- s.7.

2. Bayramov Əlipənah. Rusiya və Şərq. Rusiya akademik şərqşünaslığının 200 illiyi // Xalq qəzeti - 2018 - 5 dekabr. - s. 4
3. http://www.manuscript.az/
4. http://www.elyazmalarinstitutu.com/
5. http://www.science.gov.az/
6. http://xalqqazeti.com/az/news/10254
7. https://525.az/site/?name=xeber&news_id=98552#gsc.tab=0

**Айнур Наджафова**

**Взаимоотношений между Институтом Рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана и различными научными учреждениями, библиотеками и университетами Российской Федерации (2015-2020 гг)**

В статье рассматривается история взаимоотношений между Институтом Рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана и различными научными учреждениями, библиотеками и университетами Российской Федерации. Проделанная работа по укреплению связей Института Рукописей с научными и культурными учреждениями России в 2015-2020 гг. представлена в хронолого-исторической последовательности. Рассказывается о научных поездках сотрудников Института в высшие учебные заведения, музеи, архивы и библиотеки этой страны, публикации результатов исследований в международных научных журналах, работы в соавторстве с российскими учеными, копии рукописей и других ценных источников, полученных от организаций, действующих в этой стране и т.д.

***Ключевые слова:*** *Института Рукописей, Российская Федерация, международные связи, 2015-2020 гг*

**Aynur Najafova**

**Relations of the Institute of Manuscripts of ANAS named after Mohammad Fuzuli with various scientific institutions, libraries and universities of the Russian Federation (2015-2020 years)**

The article discusses the history of the relationship of the Institute of Manuscripts named after Mohammad Fuzuli of ANAS with various scientific institutions, libraries and universities of the Russian Federation. The work done to strengthen the relations of the Institute of Manuscripts with scientific and cultural institutions of Russia in 2015-2020 years is presented in chronological and historical sequence. They talk about scientific trips of the Institute's employees to higher educational institutions of the country, museums, archives and libraries, publication of the results of their research in international scientific journals, as well as work in collaboration with Russian scientists (including our compatriots).

***Key words:*** *Institute of Manuscripts, Russian Federation, International relations, 2015-2020 years*

Redaksiyaya daxilolma tarixi: 04.05.2020
Çapa qəbul olunma tarixi: 12.05.2020

Tarix üzrə fəlsəfə doktoru
**Nigar Babaxanova** tərəfindən çapa tövsiyə olunmuşdur.